# Ömür boyu borclu qaldım



Bu yaxınlarda işdən evə dönürdüm, dayanacaqda bir xanım mənə yaxınlaşaraq soruşdu ki, siz Əzizə Cəfərzadənin qohumusunuz? Açığı, necə cavab verəcəyimi bir anlıq müəyyənləşdirə bilmədim. Çünki bu sözləri tez-tez eşidirəm, hətta "qızıdır" deyənlər də var. "Bəli, anamdır, müəllimimdir, əzizimdir" – dedim. "Mən də elə bilirdim" – söyləyərək uzaqlaşdı. Yenə xəyallar məni o günlərə apardı. Analar anası idi Əzizə xanım! Unuda bilmədiyim sevimli insan, həyatımda yerin boş, ürəyimdə isə göynərtin əbədidir. Ovqatımın bütün rənglərində sənə ehtiyacım var. O mehriban, həzin səsin, məsləhətin üçün elə darıxıram ki… Həmişə dediyim bir şükranlığı təkrar edirəm: – məni dünyaya gətirən anam Gözələ, bir də məni formalaşdıran sevimli müəllimimə, anam Əzizə Cəfərzadəyə borcluyam.

### *Adi müəllim deyildi*

Haqqında keçmiş zamanda danışmaq ağır olsa da, təəssüf ki, əbədi ayrılığın bu qüssəsi həmişə bizimlədir. Artıq 18-ci ildir ki, Xalq yazıçısı, görkəmli pedaqoq, ədəbiyyatşünas alim, tarixi romanlar müəllifi Əzizə Cəfərzadə (1921-2003) haqq dünyasına qovuşub. Bir təsgkinlik tapıram ki, ötən il mən onun uyuduğu torpağı ziyarət etdikdən sonra yuxuda gördüm, elə qəribə tərzdə təşəkkür etdi ki... Əzizə xanım vəsiyyətinə görə Hacıqabul rayonunun Tağlı kəndində valideynləri, həyat yoldaşı və qardaşları ilə bir məzarlıqda dəfn edilib.

Əzizə Cəfərzadənin Azərbaycan ədəbiyyatındakı yerinə, mövqeyinə dürüst qiymət verilməsi, cəfakeşliklə araşdırılması ədəbiyyatşünas alimlərimizin vətəndaşlıq borcudur. Biz jurnalistlər üçün isə, Əzizə xanım bir müəllim kimi daha əziz və unudulmazdır. Yəqin ki, bu fikri hamı təsdiqləyər. Əzizə Cəfərzadə adi müəllim deyildi. O, auditoriyada müəl-

limlik işini sadəcə, mühazirə oxumaqla bitirmirdi. Elə sözlər, məsələlər var idi ki (o vaxtlar bu barədə danışmaq nəinki qadağan idi, heç mümkün deyildi), onları yalnız son 30 ildə danışır və yazırlar. Halbuki, bu acı həqiqətləri Əzizə Cəfərzadə bizə – tələbələrinə 40 il bundan öncə bütün çılpaqlığı ilə danışardı. Bu cəsarətinə, vətənpərvərliyinə, heç bir təzyiqdən, təqibdən, alacağı zərbədən çəkinmədiyinə görə, Əzizə Cəfərzadə hamımızın ürəyində xüsusi yer tutmuşdu. Onun müəllimlik fəaliyyətinin yadımızdan çıxmayan anlarını xatırlayanda, həm dərin fərəh hissi keçirir, həm də kədərlənirik. Qürurumuzu artıran odur ki, biz o cür mətin, qorxmaz, qeyrətli bir vətən qızından dərs almışıq. Kədərlənirik ki, bu cür hünər sahibi olan insanlar nəinki qadınlar, heç kişilər arasında tapılmırdı.

## *Hərdən heç anlamaq olmurdu ki...*

Bizim nəslin Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində oxuduğu vaxtlarda bir neçə müəllimi olub. Müqayisə üçün o illərin xatirələrini vərəqləyəndə xəyalımıza nələr gəlmir?! Bir müəllimimiz illərin pası tutmuş vərəqlərdən oxuduğu mühazirəsi ilə bizi cana yığmışdı. Bir dəfə nadinc tələbələrdən biri tənəffüsdə mühazirə üçün qalaqlanmış kağızların alt vərəqini üstə çəkdi. İsmayıl bəy Qutqaşınlıdan mühazirəsi olan bu müəllimə Abbasqulu ağa Bakıxanovun yaradıcılığını birbaşa oxumağa başladı. Tələbələrin arasında pıçıltı düşdü. Hətta gülən də var idi. Ən acısı o idi ki, o biliyin, o savadın yiyəsi imtahanda "əzrail”ə dönərdi.

Yaxşı ki, o illərdə bizim başqa bir müəllimimiz də vardı. Xəyalımızda işığa dönən, hamımızın dərin hörmət və ehtiram bəslədiyi, ürəkdən sevdiyi, məftun olduğu filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadə! O, Azərbaycan ədəbiyyatından mühazirələr oxuyurdu. Bizə böyük sənətkarları – Hadini, Sanini, Səhhəti, Sabiri, Mirzə Cəlili daha yaxından tanıtdığı üçün ilk növbədə ona minnətdarıq. Əzizə xanım bizə kitabda olmayanları deyərdi. Cəsarətinə, o vaxt heç kəsdə duymadığımız milli qeyrətinə vurulmuşduq. Sonralar tez-tez düşünərdik ki, görəsən, Əzizə xanım tələbələrindən niyə ehtiyatlanmırdı? Bir dəfə söhbət zamanı demişdi: «Mən gəncliyə inanırdım, qızım! Bilirdim ki, heç biriniz məni satmazsınız ki, Əzizə Cəfərzadə sovet hökumətinin əleyhinə danışır. Taytuşlarım, elə Bəxtiyar müəllim də (Vahabzadə nəzərdə tutulur. - F.X.) hərdən deyirlər ki, sənin o vaxt söylədiklərin, axır ki, danışıldı, əfsanə sayılanlar gerçəkləşdi».

Əzizə Cəfərzadə 1949-cu ildən ömrünün sonuna kimi Bakı Dövlət Universitetində dərs dedi. Arada 10-15 il Əlyazmalar Fondunda, xarici ölkələrdə işləyib. Yəqin ki, tarixi yazılarında olan dürüst həqiqəti də o illərdə tapıb. «Azərbaycan aşıq və şair qadınları», «Fatma xanım Kəminə», "Şirvanın üç şairi», «Abdulla Padarlı» və s. kitablar məhz o illərdə yazılıb. 1973-1974-cü illərdə yenidən Universitetə qayıdıb. Onun bir söhbətini unuda bilmirəm: «İlk əmək fəaliyyətimə də müəllimliklə başlamışam.

Rayonda orta məktəbdə dərs demişəm. Müharibə illərində kişi müəllimləri əvəz etmişəm. Bu sənətə olan məhəbbət mənim qanıma hopub». Elə bu pak istəyin bəhrəsidir ki, Əzizə Cəfərzadə bizim hamımız üçün sevimli və unudulmaz müəllim olaraq qaldı.

Qəribə yaddaşı və danışıq tərzi vardı. Ona qulaq asdıqca, sehrə düşmüş kimi, sükuta qərq olurdun. Adət-ənənəni, qədim bayramları, unudulmuş əlamətdar günləri o qədər dəqiq və dürüst bilirdi ki, hərdən heç anlamaq olmurdu ki, bu adam etnoqrafdır, tarixçidir, folklorşünasdır,



tədqiqatçıdır, ozandır, şairdir, yazıçıdır, yoxsa sinəsi layla və bayatılarla dolu olan anadır? İstedadlı yazıçı, cəfakeş alim, sevimli müəllim, istəkli nənə, sədaqətli dost, yaxşı qonşu, xeyirə-şərə yarayan ağbirçək və mənim ömrüm boyu unuda bilməyəcəyim çox munis bir şəxsiyyət! Bütün bu məziyyətlərin necə də halal sahibi idi Əzizə xanım!

## *"Anamızın əlinə su tökməyə layiq deyilik”*

Görkəmli naşir, tərcüməçi, ədəbiyyatşünas kimi tanınan Əzizə Cəfərzadə «Cəlaliyyə», «Bakı-1501», «Vətənə qayıt», «Sabir», "Aləmdə səsim var mənim” və s. kitabları ilə oxucuların rəğbətini qazanmışdı. Təbiət etibarilə çox səmimi və dürüst olan Əzizə Cəfərzadə bədii əsərlərində bu müsbət keyfiyyətləri əks etdirirdi. Həmişə milli dəyərlərə, mentalitetə dərindən bağlılığı onun hər bir yazısında, adi söhbətində belə, hiss olunurdu. Əzizə Cəfərzadə sözün həqiqi mənasında böyük vətəndaş yazıçı

idi. Auditoriyada deyə bilmədiklərini kitablarında, yazılarında söyləmədiklərini isə, danışığında oxuculara və gənclərə məharətlə çatdırırdı.

1990-cı ilin yanvarında Bakıda baş verən faciədə qara bayraqlı şəhərin hüznlü günlərinə ağı deyib ağlayanlardan biri də Əzizə ana oldu. Bu gün də gözlərimizdən o ağır məqamlar çəkilmir. Əzizə Cəfərzadə şəhid düşmüş vətən oğullarının qırmızı qərənfilə bürünmüş tabutları önündə necə fəryad çəkib bədahətən bayatılar deyirdi:

***Arazam, keç üstümdən,***
***Keç, karvan, keç üstümdən.***
***Bu dərdi mən əkmişəm,***
***Dəryaz al, biç üstümdən.***

Mən ilk dəfə şəhidlərin şərafəti önündə sağ qaldığımın xəcalətini o məqamda duymuşam. Əzizə xanım ağ saçlarını əlləri ilə xışmalayıb göz yaşları axıdanda onun bu ağır fəryadı önündə hansı hala düşdüyümü sözlə ifadə edə bilmirəm.

Çox mənalı və bitkin ömür yaşadı Əzizə xanım! Ən böyük arzusu vətən torpağının işğalçılardan azad olunduğu günü görmək qismət olmasa da, mən Şuşada – Cıdır düzündə var səsimlə harayladım: “ Ruhun şad olsun, ana, ruhun şad olsun, Əzizə anam! Necə hönkürüb ağladığımı ifadə edə bilmirəm. Bu göz yaşları, əslində, həsrətdən qurtulmağın nidası idi!

Əzizə Cəfərzadə Azərbaycanın Xalq yazıçısı adını almış ilk qadın ədibimizdir. «Şöhrət» ordeninə layiq görülmüşdü, Prezident təqaüdçüsü idi. Müxtəlif vaxtlarda yubileyləri qeyd edilmişdi.

Onun haqqında müxtəlif monoqrafiyalar, əsərlər yazılıb. Özünün isə ən çox bəyəndiyi və qiymətləndirdiyi «Biz Cəfərzadələr» kitabında Azərbaycan ədəbiyyatında xidmətləri olan Əzizə, Məmməd, Əhməd Cəfərzadələrin yaradıcılığından söz açılır. Əzizə xanım xiffətlə deyərdi: «Biz, iki qardaş, bir bacının ilk müəllimi anamız Böyükxanım olub. Qeyri-adi qadın idi. Həm zahiri, həm də mənəvi gözəlliyi heyrət doğururdu. Üçümüz də elmlər doktoruyuq, amma anamızın əlinə su tökməyə layiq deyilik. İstər, bilik, istərsə də, dünyagörüşü cəhətdən dərya idi. «Anamın nağılları» kitabının müəllifi, əslində, elə anam idi. İndinin özündə də yadıma bir ağı, bir bayatı düşür. Görürsən ki, bir hecası çatmır. Əvvəllər anamdan soruşardım, indi isə...”

## *Cızdağı çıxardan kəlmə*

Ağsaçlı Əzizə xanımın dolmuş gözləri indi də xəyalımdan çəkilmir. Məni heyrətə gətirən o idi ki, ana həsrəti ilə yanıb-yaxılan Əzizə xanımın 80 yaşı var idi, amma uşaq kimi kövrəlib dolurdu.

Əzizə Cəfərzadə mənim təkcə müəllimim olmamışdı. Mənə dərs dediyi illərdən (1974-cü il) ömrünün sonunadək ən yaxın sirdaşım, dostum, məsləkdaşım və məsləhət yerim olmuşdu. O qədər sadə, təvazökar idi ki, başım nəyəsə qarışıb onu axtarmayanda özü zəng edərdi. Xəcalətimdən ölüb-dirilərdim. Əl-ayağa düşərdim: «Əzizə xanım, sən Allah, bağışla.

Mən zəng etməli idim». Cavabına fikir verin: «Niyə elə deyirsən? Məgər sənin işin-gücün yoxdur? Sadəcə, hənirini eşitmək istədim». Bu hənir kəlməsi mənim cızdağımı çıxarırdı. Çünki doğma anam yadıma düşərdi. Rəhmətlik həmişə səsimi eşidəndə söyləyərdi: «Hənirinə qurban olum, ay bala». Anamı itirəndən sonra bu mehri və məhəbbəti mənə səxavətlə bağışlayan, məni tez-tez arayıb-axtaran, analıq sevgisini üzərimdən əskik etməyən Əzizə Cəfərzadə idi. Bundan başqa, mənim ən həssas və diqqətli oxucum da Əzizə xanım idi. Bir yazımı da ötürməzdi. Hamısı barəsində öz rəyini bildirərdi. Kitablarım haqqında resenziyalar yazmışdı. Onun həssaslığı önündə həmişə heyrətdə qalırdım.

İndi də son görüşümüz gözlərimdən çəkilmir. Zəngləşmişdik, evinə getməli idim. Bizi gözləyirdi. Sinif yoldaşlarını başına yığmışdı. Müraciətini heç unuda bilmirəm; “Qızlar, yadınızdadı...”. 80 yaşlı xanımların bu cür təbii və səmimi danışıqları məni həm heyrətləndirmişdi, həm də kövrəltmişdi. Mənə elə gəlir ki, Əzizə xanımın son şəkli elə mənimlə olub. Onun qəfil itkisindən sonra bir müddət özümə gələ bilmədim. Yeni kitablarımın təqdimatında, övladlarımın toyunda, ovqatımın ən təlx vaxtında, sevincimin aşıb-daşdığı məqamda, bütövlükdə həyatımda Əzizə xanımın yeri görünür.

Əzizə xanım, əslində, canlı məktəb idi. Ondan öyrənməli, götürməli məziyyətlər necə də çox idi. Nə heyif ki, ömür vəfa etmədi. Əzizə Cəfərzadənin xəyalımızda yandırdığı işıq isə, bu gün də duyğu və düşüncələrimə nur saçmaqdadır. Nə qədər ki, rəfimdə sıralanmış kitabları, yaddaşımda pozulmayan xatirələri, saysız-hesabsız tələbələri – ardıcılları var, heç vaxt unudulmayacaq Əzizə Cəfərzadə! Bir təskinliyim də var ki, televiziyada layihə rəhbəri olduğum "Yadigarlar” verilişinin ilk sayını da məhz öz ustadıma, müəllimimə, anama həsr edə bildim. Bu, həm də onun ruhundan xeyir-dua almaq idi…

Ovqatımın bütün rənglərində mənimlə olan insan, indi sənin 100 yaşın tamam olur! Yüzdü – düzdü, – deyirlər! Kaş ki, mənə dərs dediyin o bəxtəvər günlərin biri indi olaydı. Yenə də mənə gizlicə mandarin verəydin. Yadından çıxarıb gətirməyəndə qulağım səsində, gözlərim əlində qalaydı. Tənəffüsdə yavaşca məhəbbətlə etirafını eşidəydim: “Sabah bugünkün də gətirəcəm...”



Son illər tez-tez eşitdiyim bu sözlər məni həm sevindirir, həm kövrəldir: “Siz Əzizə Cəfərzadəyə çox bənzəyirsiniz...” Niyə də olmasın ki?! O ruh həmişə mənimlədi. Qəlbimdə məhəbbətin, ağlımda tövsiyələrin, varlığımda öyrətdiklərin... Səsi qulağımdan, əksi gözlərimdən çəkilməyən Əzizə Cəfərzadə!

***Flora XƏLİLZADƏ***